Xalq qəzeti.- 2025.- 17 iyul (№ 145).- S.11.



Yeni kitablar

# “Jurnalist ömrünün əbədiyyət nağməsi”




**Milli jurnalistikamızın 150 illik yubileyinin ölkəmizdə ümumxalq təntəntənələri ilə qeyd edildiyi günlərdə şəhid jurnalst Məhərrəm İbrahimovun xatirəsi də ehtiramla yad edilib. Dünən Azərbaycan Mətbuat Şurasında AZƏRTAC-ın Kəlbəcərdə xidməti vəzifəsini yerinə yetirərkən mina qəzasına düşmüş əməkdaşına həsr olunmuş “Jurnalist ömrünün əbədiyyət nağməsi” kitabının təqdimat mərasimi keçirilib.**

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, deputatlar Vüqar Rəhimzadə, Rizvan Nəbiyev, Azər Allahverənov, Pərvin Kərimzadə, Nigar Məmmədova uzun müddət cəbhə bölgəsinə ezamiyyətlərə gedən, təmas xəttində mətbuat nümayəndələri üçün təşkil olunan təlimlərdə iştirak edən, 44 günlük müharibə zamanı ən qaynar nöqtələrdən xəbərlər, reportajlar hazırlayan Məhərrəm İbrahimovun peşəkar hərbi jurnalist kimi fəaliyyətindən bəhs edib, bu sahədə onun göstərdiyi fədakarlıqdan danışıblar.

Diqqətə çatdırılıb ki, kitabda Vətən müharibəsində qazanılan Zəfərdən sonra Ermənistanın müharibə cinayətləri, mülki əhalini hədəfə alması, işğaldan azad edilmiş ərazilərdə erməni faşistlərinin viran qoyduğu qədim yurd yerlərinin dəhşətli mənzərəsi barədə mərhum jurnalistin birbaşa hadisə yerindən hazırladığı materiallar, informasiyalar da yer alıb və bunlar çox dolğun təsir bağışlayır.




Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, Mətbuat Şurasının sədr müavini Səadət Məmmədova, Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli, "Real TV"-nin rəhbəri Mirşahin Ağayev, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu, Əməkdar jurnalist Elşad Eyvazlı, AZƏRTAC-ın əməkdaşı Süleyman Qaradağlı erməni qəddarlığının və mina terrorunun geniş ictimaiyyətə çatdırılması, hərbi jurnalistika üzrə ixtisaslaşan tələbə və gənclərin formalaşması sahəsində kitabın oynayacağı müsbət roldan bəhs ediblər.

Məhərrəmin həmyerliləri adından çıxış edən professorlar Məcid Məsimov, Məhəmməd Kərimov və başqaları qeyd ediblər ki, ölümündən sonra “Vətənə xidmətə görə” medalı ilə təltif ediliş Məhərrəm İbrahimov bu dünyaya cəmi 39 il yaşasa da, tömrü əbədiyyət yoluna qovuşdu. Lakin onun ömür nəğməsi tanıyanların qəlbində daim ehtiramla səslənəcək.

Sonda kitabın müəllifi, şəhid-jurnalistin qardaşı Əsgər İbrahimov iştirakçılara qədirbilənliyə və dəyərli sözlərə görə minnətdarlığını bildirib.

*T.RÜSTƏMLİ*
*XQ*